

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 106 (23.748)

*12 iyun 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rekordsmen diyarımız Naxçıvan



***Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı son illərdə bura yolu düşən çox insanların dilindən səslənib. İnfrastruktur quruculuğu, rahat yollar, gözoxşayan yaşıllıqlar, yenidən həyat verilmiş tarixi abidələr, hər yerdə hökm sürən təmizlik Naxçıvan haqqında təəssüratların ana mövzusunu təşkil edir. Sevindirici hal odur ki, Naxçıvanın bu cür xarakterizə olunması xarici qonaqlar üçün də xasdır. Peşə fəaliyyətimlə əlaqədar indiyədək həmsöhbət olduğum, muxtar respublikaya səfər edən müxtəlif ölkələrin diplomatik nümayəndələrinin, o cümlədən elm, mədəniyyət, incəsənət insanlarının, hətta sadə turistlərin belə, dilindən Naxçıvanla bağlı eşitdiyim xoş sözlər bu qədim yurdun sakini kimi məni çox sevindirib, qürurlandırıb.***

Kiçikhəcmli müsahibələrin və ya ayaqüstü söhbətlərin mənim üçün ən maraqlı və fəxr ediləsi tərəfi isə bu cür fikirlərin dünyanın ən inkişaf etmiş ölkələrindən gələnlərin də dilindən səslənməsi olub. Bilirsiniz niyə? İnsanoğlu xaraktercə yaşadığı əraziyə bağlı olur, kənara çıxdıqda isə başqa ölkədə və ya bölgədə gördüklərini ilk dəfə şüuraltı olaraq yaşadığı yerlə müqayisə edir. Əgər ziyarət etdiyi, yeni tanış olduğu yerlərdə diqqətini çəkən maraqlı bir nüans varsa, onu o dəqiqə etiraf edir. Buradan o nəticəyə gəlinir ki, əgər bir əcnəbi Naxçıvanın havasını, suyunu və digər təbii gözəlliklərini tərifləyirsə, bu, yaxşıdır, əgər buradakı təhlükəsiz həyata, təmizliyə, ictimai və sosial davranışlara məftunluğunu dilə gətirirsə, bu, artıq əladır. Elə buna görə də indiyədək Naxçıvanla bağlı səmimi deyilənlər yalnız yaxşı və əladan ibarətdir. Ən önəmlisi isə bütün bu qeyd olunanlar tərif deyil – Naxçıvanın yaratdığı reallıqlardır! Biz isə elə bu reallıqların işığında ölkə Prezidenti cənab İlham Əliyevin Naxçıvana 10 may tarixdəki səfərində – ***"Naxçıvan Muxtar Respublikası son 20 il ərzində iqtisadi artımın templərinə görə rekordsmen bölgədir. Ümumi daxili məhsul 10 dəfədən çox artıb"*** fikirləri üzərində durmağa çalışacağıq. Əslində, dövlət başçısı muxtar respublikada bir çox istiqamətlərdə görülən işlər haqqında ayrıca bəhs etdi, hətta ölkənin birinci dövlət televiziya kanalına bu barədə geniş müsahibə verdi. Amma ümumi qiymətləndirmə baxımından muxtar respublika iqtisadiyyatının misal gətirilməsi digər sahələrdə qazanılmış uğurları da əhatə edir. Ən azından iqtisadi gücün bütün sahələrə təsiri və qazanılmış müsbət nəticələrdə rolu baxımından.

Təbii ki, Naxçıvan Muxtar Respublikasının bugünkü inkişafının təməli ötən əsrin əvvəllərindən – ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdən başlayır. Həmin dövrdə Naxçıvanın problemləri təkcə daxili ictimai-siyasi vəziyyətdən asılı deyildi. Şimal sərhədləri tamamilə təhdid altında olan, nəqliyyat, rabitə və digər kommunikasiya əlaqələrinin kəsilməsi nəticəsində blokadaya salınan muxtar diyar, həm də daxili iqtisadi gərginliyin ən pik həddinə gəlib çatmışdı – bütün istehlak bazarı idxaldan asılı vəziyyətə düşmüşdü. Belə bir vəziyyətdə mərkəzi hakimiyyətin Naxçıvana ögey münasibəti vəziyyəti daha da qəlizləşdirmişdi. Yalnız ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri, gərgin əməyi, böyük siyasi nüfuzu və fenomenal qabiliyyəti nəticəsində Ana Vətəndən ayrı düşmüş bu "ada" bütün çətinliklərə, məhrumiyyətlərə baxmayaraq, ayaqda durmağı bacardı və məhz blokada şəraitində yeni inkişaf modelini ortaya qoydu.

Qısa müddətdə muxtar respublikada kənd təsərrüfatı sahəsində mövcud şəraitin yol verdiyi fürsətlər dəyərləndirildi. Enerji təhlükəsizliyinin təmin olunması üçün müxtəlif illərdə elektrik enerjisi istehsal edən stansiyalar tikilərək istifadəyə verildi. Növbəti illərdə infrastruktur quruculuğu prosesinə başlanıldı və bu quruculuq xəritəsi ucqar dağ kəndlərindən mərkəzə doğru genişlənərək bütün yaşayış məntəqələrini əhatə etdi. Eyni zamanda bazar iqtisadiyyatının prinsiplərinə uyğun olaraq yeni sahibkarlıq subyektləri fəaliyyətə başladı. Yerli məhsulların istehsalı ildən-ilə artdığından Naxçıvan məhsulları daxili bazarı təmin etməklə yanaşı, xarici bazarlara da ixracı artırmağa başladı. Bu illər ərzində sosial-iqtisadi sahələrin inkişafı ilə bağlı müxtəlif Dövlət proqramları qəbul edilərək uğurla icra olundu, həmçinin əhalinin məşğuliyyət sahələrinə çıxışı diqqət mərkəzində saxlanılaraq özəl sektorda yeni iş yerləri yaradıldı, nəticədə, muxtar respublikada sürətli inkişafın təməli qoyuldu. Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində bu gün muxtar respublikada 384 növdə məhsul istehsal olunur. Bunun da 127 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Sahibkarlığın inkişafına yaradılmış şəraitin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası Azərbaycan Prezidentinin ilk sədri olduğu "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırladığı illik investisiya reytinqində 18 parametr üzrə ən yüksək bal toplayaraq ikinci dəfə lider oldu. Təsadüfi deyil ki, bu gün Naxçıvan Muxtar Respublikası bir çox istiqamətlər üzrə liderlik edir. Məsələn, dövlət başçısının ***"…Təkcə onu demək kifayətdir ki, qazlaşdırmanın səviyyəsi artıq 100 faizə çatıb. Elektrik enerjisi ilə təchizat 100 faizə çatıb və Naxçıvanda çox böyük enerji potensialı yaradılıb. Vaxtilə Naxçıvanda işıq yox idi, enerji yox idi. Azərbaycandan gələn xətlər də Ermənistan tərəfindən kəsilmişdi. İndi isə Naxçıvan özünü elektrik enerjisi ilə tam təmin edir və bərpa olunan mənbədən istifadə edir. Bu, çox önəmlidir…"*** fikirləri, həm də Naxçıvanın Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadəyə görə ilk yerdə dayanmasına əsaslanırdı.

Dövlət başçısının son səfərində diqqətçəkən məqamlardan biri də bu idi ki, Prezidentin açılışında iştirak etdiyi və ya tanışlıq məqsədilə olduğu obyektlərin əksəriyyəti strateji əhəmiyyəti ilə seçilirdi. Məsələn, Əlahiddə Ümumqoşun Ordunun Hərbi Aerodromu, Naxçıvan Qarnizonunun Mərkəzi Hospitalı, Naxçıvan Beynəlxalq Hava Limanının yeni uçuş-enmə zolağı, Culfa-Ordubad magistral avtomobil yolu, Ordubad Su Elektrik Stansiyası kimi ünvanlar bunu bir daha təsdiq edir. Bütün bunlar isə onu göstərir ki, Naxçıvanın hərtərəfli inkişafı onun etibarlı təhlükəsizliyini də təmin edib. Və Naxçıvan bütün sahələr üzrə uğurlu nəticələri ilə Azərbaycanın daha da güclənməsinə bundan sonra da yeni töhfələr verəcək.

**Səbuhi HƏSƏNOV**

## Musiqi təhsilli müəllimlər üçün müsahibə mərhələsi başlayıb



Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında 8 may 2019-cu il tarixli Qərarına əsasən musiqi təhsili müəssisələrində çalışan müəllimlərin attestasiya imtahanları test üsulu və müsahibə vasitəsilə iki mərhələdə həyata keçirilir.

Birinci mərhələdə müvəffəqiyyət qazanmış iştirakçılar müsahibə mərhələsində iştirak etmək hüququ əldə ediblər. Müsahibənin keçirilməsi üçün Mədəniyyət Nazirliyindən 1, Dövlət İmtahan Mərkəzindən 1, muxtar respublikada fəaliyyət göstərən ali təhsilli müstəqil ekspert qismində 3 nəfər olmaqla, 5 üzvdən ibarət müsahibə komissiyası yaradılıb. Müsahibə mərhələsində müəllimlərə verilən tapşırıqların yerinə yetirilməsi üçün 30 dəqiqə vaxt ayrılır və müəllimin praktik hazırlığı, peşəkarlıq və ifaçılıq qabiliyyəti yoxlanılır.

Qiymətləndirmənin nəticələri müəllimlər arasında dərs yükünün bölüşdürülməsi və onların karyera inkişafı zamanı nəzərə alınacaq.

Qeyd edək ki, 17-22 may tarixlərdə keçirilən attestasiyanın test mərhələsində 516 müəllim iştirak edib. Naxçıvan Musiqi Kolleci üzrə 27, uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üzrə isə 383 müəllim olmaqla, 410 nəfər müvafiq keçid balını toplayıb və müsahibədə iştirak etmək hüququ qazanıb.

Attestasiya və təkrar attestasiyada müvəffəqiyyət qazanmış dövlət musiqi təhsili müəssisələrinin müəllimləri üçün keçirilən müsahibə mərhələsi iyulun 1-dək davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

*Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə muxtar respublikanın ümumtəhsil və şahmat məktəbləri arasında 15 İyun – Milli Qurtuluş Günü ilə əlaqədar "Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır" mövzusunda interaktiv dərslər keçilmişdir.*

## 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbirlər keçirilib



İnteraktiv dərslər zamanı qeyd edilib ki, dövlət müstəqilliyimizi qazanmaq nə qədər çətin olsa da, onu qoruyub saxlamaq, möhkəmləndirmək bundan dəfələrlə çətin olmuşdur. Sirr deyil ki, Azərbaycan xalqı müstəqilliyin ilk illərində tarixin ağır sınaqları qarşısında qalmışdı. Azərbaycanda hakimiyyətsizlik, xaos son həddə çatmışdı. Respublika, demək olar ki, bütün dünyadan təcrid olunmuşdu.

Xüsusi idarəçilik və təşkilatçılıq qabiliyyəti, böyük dövlətçilik təcrübəsinə malik, dünya siyasətçiləri içərisində öz dəstxəti ilə seçilən ümummilli liderimiz hələ 1990-cı il iyul ayının 22-də Naxçıvana gələrək burada xalqın dərdinə şərik çıxmışdı. Ulu öndərin rəhbərliyi altında Naxçıvanda dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. 17 noyabr 1990-cı il tarixdə Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin rəhbərliyi ilə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında", "Naxçıvan Muxtar Respublikası Ali dövlət hakimiyyəti orqanı haqqında" və "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarlar qəbul edildi. 3 sentyabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilən ümummilli lider Naxçıvanda mövcud siyasi böhranı aradan qaldırdı. İqtisadi islahatlara başlanıldı, sahibkarlığın inkişafına şərait yaradıldı. Muxtar respublikanın sərhədlərinin müdafiəsi istiqamətində gərəkli işlər görüldü. Görkəmli dövlət xadimi Naxçıvanda müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, Ona olan ümidləri artırırdı. Azərbaycanda başlanmış təhlükəli proseslərin qarşısını ala bilməyəcəyini dərk edən iqtidar son anda kömək üçün dahi şəxsiyyət Heydər Əliyevə müraciət etdi. Ulu öndər o ağır günlərdə xalqın və hakim dairələrin təkidli dəvətini qəbul edib 1993-cü il iyunun 9-da Bakıya getdi. Görkəmli dövlət xadimi 15 iyun 1993-cü ildə Ali Sovetin Sədri seçildi, iyunun 24-dən isə Milli Məclisin Qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

Dərs zamanı qeyd olunub ki, 1993-cü il oktyabrın 3-də xalq öz xilaskarı Heydər Əlirza oğlu Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdikdən sonra Azərbaycanda dövlətçiliyin bərpa və inkişaf etdirilməsi, ictimai-siyasi sabitliyin, dövlət intizamının, qanunçuluğun möhkəmləndirilməsi başlandı. Ölkənin xarici və daxili siyasət kursu işlənib hazırlandı. Dünya siyasətini müəyyən edən dövlətlərlə tarazlı əlaqələr yaradıldı. Bölgədə iqtisadi və siyasi marağı olan dövlətlərlə Azərbaycanın suverenliyinə hörmət çərçivəsində uğurlu əməkdaşlığın əsası qoyuldu.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun və İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşlarının iştirakı ilə 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş "Qurtuluşa gedən yolda Naxçıvan" adlı onlayn tədbir keçirilib.

Tədbirdə mərkəzin elmi katibi Nihad Tarverdiyev, AMEA Naxçıvan Bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev, bölmənin İncəsənt, Dil və Ədəbiyyat İnstitutunun əməkdaşı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Ələkbər Qasımov çıxış ediblər. Çıxışlarda bildirilib ki, Milli Qurtuluşun bəhrələri Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında aydın təcəssüm olunur, Heydər Əliyev siyasi kursu uğurla davam etdirilir. Azərbaycan yeni uğurlara imza ataraq dünyada iqtisadi artım tempinə görə lider dövlətə çevirilib, region dövlətlər arasında iqtisadi və siyasi güc mərkəzinə sahib olub. Həyatın bütün sahələrində əldə edilən uğurlar isə öz tarixi başlanğıcını 15 iyun 1993-cü il tarixli qayıdışdan götürür. Ümummilli liderimiz Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın tələbi ilə respublikada siyasi hakimiyyətə qayıdışı, 1997-ci ildə Milli Məclisin Qərarı ilə Azərbaycan xalqının Milli Qurtuluş Günü kimi tariximizə əbədi həkk olunub.

**Xəbərlər şöbəsi**

İnkişaf edən bölgələrimiz

# Fərəhimsən, qürurumsan






Qədim Şərur diyarı... Tarixin o üzündən bəri boylanan, inkişaf edib müasirləşdikcə qədimliyini, ululuğunu qoruyub saxlayan yurd yerimiz. Yolboyu tarixi mədəniyyətinə, mədəniyyəti ədəbiyyatına arxa olub milli dəyərlərimizi, adət-ənənələrimizi qərinələrin saxlancına ərməğan edən bu doğma diyarımın tarixindən əzəmət, mərdlik, mədəniyyətindən zəhmətkeşlik, ədəbiyyatından cəfakeşlik alan insanları və bu diyarın keçdiyi keşməkeşli günləri, xalqımızın ən çətin vaxtlarında indi dayandığım yerdə – Azadlıq meydanında 90-cı illərin qış aylarında soyuğun iliyə işlədiyi bir vaxtlarda gecədən səhərə, səhərdən axşama kimi yanan tonqalları, onların başında dayanıb Vətənin müdafiəsi növbəsinin nə vaxt onlara çatacağını gözləyən el oğullarını, işıqsız, qazsız, çörəksiz qalsa da, mətanətini itirməyən qadınlarımızı, tüstüləyən neft maşınkasında çətinliklə tapdığı bir ovuc undan bişirdiyi çörəyi səngərdəki əsgərə göndərən, özü isə ac yatan nənələrimiz barədə düşünürəm... Və bu gün hər dəfə yolum Şərura düşəndə gözəlləşən, böyüyən, gülüstana çevrilən yurdun sakini olduğumu düşünür, qürur duyuram.

Yurdunun saatbasaat, günbəgün bütün yönlərdə yeniləşdiyini, bütövlükdə, boy atdığını görmək dünyanın ən böyük xoşbəxtliyidir. İftixar hissi ilə deyirik ki, bu gün Naxçıvan Muxtar Respublikası yüksəliş dövrünü yaşayır. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikanın iqtisadiyyatı ilbəil möhkəmlənir, əhalinin yaşayış səviyyəsi yüksəlir, şəhər və kəndlərdə quruculuq işləri geniş vüsət alır. Bütün bunları muxtar respublikamızın hər qarışında görmək mümkündür. Əslən bu rayondan olan biri üçün Şərurun illər öncəki vəziyyəti ilə müasir dövrünü müqayisə etmək heç də çətin deyil.

Muxtar respublikamızın bütün bölgələrində vüsət alan geniş quruculuq prosesləri bu rayonun da ucqar dağ kəndlərinin, sərhəd yaşayış məntəqələrinin simasını dəyişib. Ən kiçik dağ kəndlərində belə, sosial problemlər öz həllini tapıb. Hər cür şəraitə malik müasirtipli təhsil ocaqları, tibb məntəqələri, mədəniyyət obyektləri ucaldılıb. Bir vaxtlar yolu, izi olmayan dağ kəndlərinə geniş abad yollar salınıb, dünənə kimi qonşu kəndlərlə əlaqəsi olmayan, sərhəd yaşayış məntəqələri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yarada bilir.

Ulu öndərimiz Heydər Əliyev deyib: ***“Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var. Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz...”*** Dahi rəhbərin arzularının həqiqətə çevrildiyi məkanda, Şərurda Onun 1992-ci ildə minlərlə insanın əhatəsində çıxış etdiyi meydanda – Azadlıq meydanında dayanmışam.



Bir vaxtlar burada yanan tonqalların külü var idi. İndi al-əlvan güllər açıb. Köhnə asfaltdan keçən avtomobillərin təkərlərinin altından çıxan palçıqlı su üst-başımızı bulamasın deyə, çəkinə-çəkinə getdiyimiz yollar, heç bir şəraiti olmayan məktəbimizdə soyuqdan donmamaq üçün sinfə növbə ilə neft apardığımız günlər xatirəyə dönüb. İndi yanımdan ötən məktəblilərə həsədlə baxıram və sevinirəm ki, onlar yurdumuzun intibah, dirçəliş günlərinin şahidləridir. Onlar hər şəraiti olan məktəbdə təhsil alır, gülüstana çevrilən yurdda yaşayırlar.

Həmsöhbət olduğum rayonun Çomaxtur kənd sakini Rəhim Mədətov atalarımızın “Abad el yolundan bilinər” misalını yada salır, deyir ki, qədim yurdumuz Naxçıvanımızın gündən-günə gözəlləşib, çiçəklənməsi hamı kimi məni də çox sevindirir. Son iki onillikdə doğma diyarımızda çox böyük, diqqətəlayiq işlər görülür. 10-15 il əvvəl buradan ayrılan hər kəs, yəqin ki, indi Naxçıvanı görsə, tanımaz. Paytaxt şəhərimizlə yanaşı, kəndlərimiz də simasını dəyişib, inşa olunan və ya əsaslı şəkildə bərpa edilərək müasirtipli təhsil, mədəniyyət, səhiyyə ocaqları, digər sosial-mədəni obyektlər bu qədim torpağın simasını daha da gözəlləşdirib.

Mən uzun illərdir ki, avtomobil idarə edirəm. İllər əvvəl bütün kəndlərimizin yollarının tozlu-torpaqlı olması həm sürücülər, həm də sərnişinlər arasında ciddi narazılıqlar yaradırdı. Muxtar respublikada geniş vüsəti ilə diqqəti çəkən tikinti-quruculuq tədbirlərinin tərkib hissəsini təşkil edən yol infrastrukturunun yeniləşməsinə göstərilən qayğı hesabına bu problem artıq öz həllini tapıb. Yollarımızda geniş təmir işləri aparılıb, su keçidləri, körpülər tikilib. İndi digər bölgələrimiz kimi, Şərur rayonunun Arazqırağı, ucqar dağ kəndlərinə də gediş-gəliş xeyli asanlaşıb.

Yolların kənarında salınan yaşıllıqlar isə, sözün əsl mənasında, göz oxşayır. Bütün bunlar yurdumuza gözəllik verir, həm də insanlara rahatlıq gətirir. Bir vaxtlar qar-yağış yağanda dağ kəndlərimizin şəhərlə əlaqəsi, demək olar ki, tamamilə kəsilirdi. Bu gün isə bu problemlərin, qayğıların heç birini yaşamırıq. Hansı fəsil olursa-olsun, getmək istədiyimiz ünvana vaxtında çatırıq. Şərur şəhər avtomobil yolları, yeraltı piyada keçidinin istifadəyə verilməsi də yeni qayğıdan xəbər verir. Onu da deyim ki, çox illər öncə dəmir yolunun üstündə böyük beton körpü var idi. Həmin körpü dəmir yolu mənfur düşmən tərəfindən bağlanandan sonra dağıdıldı. İllər sonra Böyük Qələbəni övladlarımız öz canından keçərək bizlərə yaşatdı. Bu gün bu yeraltı keçidi görəndə gələcəyə ümidlərim daha da artdı. Zəngəzur dəhlizinin açılması ilə, inşallah, buradan qatarlar sağa-sola gedəcək. Bu yeraltı piyada keçidinin istifadəyə verilməsi gələcəyə hesablanıb. Mən bir şəhid atası kimi illərdir, elinə, yurduna, sözünə sədaqət göstərən, torpağımızın hər qarışının gülüstana çevrilməsində zəhməti olan Ali Məclis Sədrinə minnətdarlığımı bildirirəm. Naxçıvan cənnətə dönüb. Ona görə də, qurub-yaradan əllərə alqış deyirəm.

Şərur şəhərində yeni istifadəyə verilən yaşayış binası da müasir görkəmi ilə göz oxşayır. Burada Şərur Rayon Gigiyena və Epidemiologiya Şöbəsi üçün müasir iş şəraiti yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yeni obyektlərin istifadəyə verilməsi münasibətilə rayon sakinlərini və kollektivi təbrik edərək demişdir: ***“Gigiyena və epidemiologiya bu gün ən vacib sahələrdən biridir. Dünyada yayılan virusun epidemiyadan pandemiyaya çevrilməsi bu sahənin vacibliyini bir daha göstərdi. Muxtar respublikada hələ bir neçə il əvvəl bu istiqamətdə əsaslı işlər görülmüşdü. Lakin dünyada son illər müxtəlif virusların yayılması, xüsusilə mövcud pandemiyanın yaratdığı problemlər bu sahədə yeniliklərin tətbiqini zərurətə çevirdi. Muxtar respublikanın əksər rayonlarında Gigiyena və Epidemiologiya şöbələri üçün yeni iş şəraiti yaradılmış, müasir avtomobillər alınıb verilmişdir”.***

Şöbənin baş həkimi Məhərrəm Qədimovla söhbətimiz zamanı bildirdi ki, uzun illər başqa-başqa idarələrin binalarında onlara ayrılan otaqlarda işləyiblər. Bu da işin gedişinə mane olurdu. Müasir avadanlıqla təmin edilmiş belə bir yerin bizə verilməsi işimizi yüksək səviyyədə qurmağa imkan yaradıb. Dövlətimizin qayğısını hər zaman üzərimizdə hiss etməyimiz biz həkimləri daha çox çalışmağa sövq edir. Yaradılan şəraitdən səmərəli istifadə edəcək, rayonumuzda epidemioloji sabitliyin qorunmasına töhfəmizi verəcəyik.

Şərurdan ayrılır, rayon sakinlərinin “üst yol dediyi” Sədərəkdən Naxçıvana uzanan magistral yol ilə şəhərə qayıdırıq. Bayraq Meydanında bizi “yola salan” qürurla dalğalanan bayrağımıza baxıram və xalq şairi Bəxtiyar Vahabzadənin “Bayraq” şeirindəki bu misraları xatırlayıram:

*Daim ucalasan! Savaş günündə*
*Əsgər silahıyla səni tən görüm.*
*Yalnız zəfər çalmış şəhid önündə*
*Səni alqış üçün əyilən görüm.*

***Ucaldı bayrağımız ən uca zirvələrə, indi o, daha böyük bir qürurla dalğalanır, çünki o, qalib ordunun Müzəffər Ali Baş Komandanının əlləri ilə Şuşada, Qubadlıda, Cəbrayılda göylərə yüksəldi. Onun kölgəsində bizə qələbəni yaşadan şəhidlər uyuyur. Əsgərlərimiz onu ürəyi üstündə daşıyıb işğaldan azad etdikləri torpaqlara sancdılar.***

**Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublikada bu ilin ilk 5 ayında əmək pensiyalarının maliyyələşdirilməsinə 78 milyon 28 min manat vəsait yönəldilib

Son illər muxtar respublikamızda davamlı və sabit iqtisadi inkişaf sosial sahədə qarşıya qoyulan vəzifələrin uğurla həyata keçirilməsinə imkan verir. İqtisadi sahədə əldə olunan nailiyyətlər, ilk növbədə, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına, onların həyat səviyyəsinin yüksəldilməsinə təsir edir.

2021-ci ilin ilk 5 ayı ərzində müvafiq orqan tərəfindən məcburi dövlət sosial sığorta haqlarının toplanması üzrə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun xəzinə hesabına 46 milyon 19 min 800 manat vəsait daxil olmuşdur ki, bu da proqnoz üzrə nəzərdə tutulmuş vəsaitdən 1 milyon 829 min 800 manat və ya 4,1 faiz çoxdur. Sahibkarlara dövlət dəstəyinin, yeni müəssisə və iş yerlərinin yaradılmasının nəticəsidir ki, qeyri-büdcə sektorundan məcburi dövlət sosial sığorta haqları üzrə daxilolma 11 milyon 240 min manatdan artıq olmuşdur. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirlərinin nəzərdə tutulan proqnozdan artıq yerinə yetirilməsi muxtar respublikada iqtisadiyyatın davamlı inkişafına görə mümkün olmuşdur. Bu da, nəticə etibarilə, əhalinin sosial müdafiəsini, əmək pensiyalarının və məcburi dövlət sosial sığortahaqqı hesabına müavinətlərin hər ay vaxtında maliyyələşməsinin təminatıdır.

Cari ilin ilk 5 ayı ərzində fondun büdcəsinin xərclər hissəsi 81 milyon 230 min 700 manat icra olunmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,7 milyon manat, yaxud 6,1 faiz çoxdur. Bu ilin əvvəlində muxtar respublika üzrə 46 min 388 əmək pensiyaçısının pensiyalarının sığorta hissəsinin 11,4 faiz indeksasiya olunaraq artırılması əmək pensiyalarının maliyyələşdirilməsinə yönəldilən vəsaitin həcminin artmasına mühüm təsir göstərmişdir. Belə ki, bu ilin 5 ayında əmək pensiyalarının maliyyələşdirilməsinə 78 milyon 28 min manat vəsait yönəldilmişdir. Əmək pensiyaları və məcburi dövlət sosial sığortahaqqı hesabına müavinətlərin ödənişi üçün tələb olunan vəsaitin 57,6 faizi sığortaedənlərdən məcburi dövlət sosial sığortahaqqı olaraq muxtar respublikada yığılmışdır.

Muxtar respublikada iqtisadi inkişafla paralel əhalinin sosial müdafiəsi ilə bağlı tədbirlərin görülməsi insan amilinə verilən dəyərin göstəricisidir. Bu mənada, əmək pensiyaçıları da diqqətdən kənarda qalmır, onlara pensiya ödənişləri hər ayın ilk ongünlüyündə ödənilir. Muxtar respublika pensiya ödənişinin vaxtından əvvəl tamamlanmasına görə ölkə üzrə ilk pillələrdədir. Bu, əmək pensiyaçılarının sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş növbəti dövlət qayğısının ifadəsidir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli vergi qurumları tərəfindən may ayında da muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 4 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Belə ki, operativ vergi nəzarəti tədbirləri zamanı 3 vergiödəyicisinin “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 1 vergiödəyicisində uçot məlumatlarında olan dəyişikliklərlə bağlı məlumatın verilməməsi faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb. Həmçinin vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 2 vergiödəyicisində xronometraj metodu ilə müşahidələr aparılıb və müşahidəyədək olan dövriyyə ilə müqayisədə artım qeydə alınıb, nəticədə, qanunvericiliyə uyğun olaraq müəyyən olunmuş əlavə vergi məbləğinin büdcəyə ödənilməsi təmin edilib.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

## Bir arzum var: Naxçıvan teatrına akademik statusu verilsin

***"Kitabi-Dədə Qorqud" dastanı əsasında çəkilən bədii filmdə xanlar xanı Bayandır xanın qızı, bəylər bəyi Salur Qazanın həyat yoldaşı, Oğuz dövlətinin birinci xanımı Burla xatunu canlandıran, Azərbaycanın əsilzadə xanımlarının ən xarakterik və koloritli obrazlarından birini – Pəricahan xanımı yaradan, bir çox filmlərdəki xalqımızın milli-mənəvi dəyərləri sistemində əsl Azərbaycan qadını obrazlarına səhnə həyatı verən ümumxalq sevgisi qazanmış qadın sənətçilərimizdən olan, Azərbaycan xanımının milli davranış etiketlərini özündə daşıyan və yaratdığı bu obrazlarla qəlbimizdə taxt quran xalq artisti Şəfiqə xanım Məmmədova Naxçıvandadır. Görkəmli teatr və kino aktrisası, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, "Şöhrət" və "Şərəf" ordenli, 2020-ci il mart ayının 29-da Prezident cənab İlham Əliyevin imzaladığı Sərəncamla isə 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilən Şəfiqə Məmmədova ilə söhbətləşmək imkanı əldə etdik. Həmin müsahibəni oxucularımıza təqdim edirik:***



*– Şəfiqə xanım, əvvəla, sizə "Şərq qapısı" qəzetinin kollektivi adından xoş gəlmisiniz deyirik. Rol aldığınız bütün filmlərdə bir aktrisa kimi hər zaman tamaşaçıların rəğbət və məhəbbətini qazana bilmisiniz. Ekranlardan gördüyümüzdən də gözəl və təravətlisiniz. Hər zaman belə təravətli qalın. İstərdim ki, sizinlə söhbətimizə bu səfərin məqsədi və təəssüratları ilə başlayaq.*

– Əvvəla, onu deyim ki, Naxçıvana budəfəki səfərim bu müqəddəs diyara bağlılığımdan irəli gəldi. Daxilimdə o qədər böyük ehtiyac duyurdum Naxçıvanın təmiz havasına, suyuna, gözəl təbiətinə. Sonuncu səfərim 2018-ci ildə Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı elan olunarkən keçirilən açılış tədbirində iştirakım zamanı olmuşdu. Pandemiyaya görə Naxçıvana həsrət qalmışdım. Zaman çox keçdi və yaranan ilk fürsətdə gəlib Naxçıvanı yenidən görməyi planlaşdırırdım. Qismət də bu günə imiş. Bundan öncəki səfərimdə Əshabi-Kəhf ziyarətinə gedə bilməmişdim. Buna zamanın yetmədiyinə görə çox təəssüflənmişdim. Amma dünən bu arzuma da çatdım. Buraya gəldiyim gün elə həmin müqəddəs yeri ziyarət etdim, arzularımın, niyyətlərimin Allahdan qəbul olunmasını dilədim. Necə xoş hisslər keçirmişəm, necə xoş təəssüratla qayıtmışam oradan, bunu sözlə ifadə edə bilmirəm. O pillələri qalxdıqca elə bil göy qübbəsində addım atırdım. Mənim üçün elə bil bundan savayı başqa bir aləm yox idi. O natura, o möhtəşəmlik qarşısında elə həyəcanlı idim ki, pillələri qalxdıqca bilsəniz daxilən nə qədər hüzur, rahatlıq tapdım... Düşünürdüm ki, ora qalxmaq mənə çətin olacaq, amma yox, birnəfəsə qalxdım. Etiraf edim ki, ağladım da, o həyəcanı gizlətmədim. Açdım sirlərimi, dərdlərimi dedim o müqəddəs məkanda Uca Allahıma, çox palitra hisslər keçirdim.

Dünən, ümumiyyətlə, Naxçıvanın bir çox yerlərini gəzdim. 2 il keçməsinə baxmayaraq, çox dəyişiklik gördüm. Çox işlər görülüb. Buradakı rahatlığı heç bir yerə dəyişmərəm. Naxçıvandakı tarixilik, qədimiliklə yanaşı, möhtəşəm yeniliklər, təzə-tər nəfəs var. Bu şəhər incəsənət adamlarına harmonik hisslər yaşadır. Bu torpaq müqəddəs torpaqdır. Dünyaya kimləri bəxş etməyib ki?.. Alimləri, sənətkarları, yazıçıları... Bura, həqiqətən də, müqəddəsdir, çünki heç nə nahaqdan olmur. Hər şey bir-biri ilə vəhdət daşıyır. Ümumiyyətlə, Naxçıvan mənim üçün fərqli bir diyardır.

Səfərimin məqsədi isə Naxçıvandakı sənət dostlarımızla görüşmək, buradakı mədəni mühitlə tanış olmaqdır. Planımızda ustad dərslərimiz də var. Bu, Naxçıvanda keçirilən ilk ustad dərsim olacaq. Pedaqoji fəaliyyət göstərdiyim universitetdə Naxçıvandan aktyor və yaxud rejissor sənətini seçənlərdən heç bir zaman dəstəyimi əsirgəmirəm. Çünki düşünürəm ki, Naxçıvandan Bakıya aktyor sənətini seçib gəlibsə, artıq bu, böyük addımdır. Ona görə mən bir aktyor kimi, əsasən də, Naxçıvanı sevən bir insan kimi hər zaman onlara dəstək olacağam.

Dünən Naxçıvan Dövlət Musiqili Dram Teatrının, Naxçıvan Dövlət Universitetinin Aktyorluq sənəti kafedrasının kollektivləri ilə görüşüm oldu. Naxçıvan teatrı mənim üçün çox əziz və doğmadır. Mən 1969-cu ildə bu teatrın ozamankı baş rejissoru Vəli Babayevin dəvəti ilə ilk dəfə Naxçıvana gəlmişdim. Mənim üçün çox əziz olan "Nakam qız" tamaşası, sən demə, bu teatrın repertuarında da var imiş. Bir zamanlar eyni fakültənin ayrı ixtisaslarında oxuduğumuz tələbə yoldaşım Vəli müəllim məni həmin tamaşanın Naxçıvan teatrında səhnəyə qoyulması üçün Naxçıvana dəvət etdi. Və heç məsq etmədən tamaşa səhnəyə qoyuldu. Həmin tamaşa o qədər izdihamla qarşılandı ki. Bu tamaşadakı ifam mənim 3-cü çıxışım idi. Sonra yenidən xahiş etdilər ki, iştirak edə bilməyənlərin arzusu nəzərə alınaraq tamaşa yenidən səhnəyə qoyulsun. Beləliklə, bu səhnə mənim üçün çox doğmalaşdı və bundan sonra Naxçıvana tez-tez səfərlərim oldu. Ulu öndər Heydər Əliyevin rəhbərliyi və şəxsi iştirakı ilə keçirilən Naxçıvan Muxtar Respublikasının 70 illik yubileyində, daha sonra Hüseyn Cavid məqbərəsinin açılış mərasimində iştirak etdim. Yeri gəlmişkən, deyim ki, dahi Hüseyn Cavidin əsərləri mənim repertuarımda ön sıradadır.

*– Qısa zamanda da olsa, yəqin ki, Naxçıvanın mədəni mühitlə növbəti tanışlıq imkanı əldə etdiniz. Naxçıvanda mədəniyyət sahəsində baş verən yenilikləri izləmək imkanınız olurmu? Bir sözlə, Naxçıvanda gedən mədəni proseslərə münasibətinizi bilmək istərdik...*

– Mənim üçün doğma olan Naxçıvan teatrına göstərilən diqqət və qayğı məni çox sevindirir. İstər maddi-texniki baza tərəfdən, istər quruluş baxımından hər şey mükəmməldir. Bir çox yerləri gəzib teatrlarla tanış olmuşam. Məndən soruşsalar, bu gördüklərimin içərisində ən çox Naxçıvan teatrını üstün tutaram. Çünki burada işıqlandırma, səsləndirmə, akustika, mizam kimi səhnədə tamaşanın keyfiyyətinə təsir edən göstəricilərin əksəriyyəti digər teatrlarda yoxdur. Bu, mədəniyyət sahəsinə yüksək qayğının ifadəsidir. Naxçıvan teatrı bir əsrdən çox yaşı olması ilə yanaşı, həm də müasir standartlara cavab verən maddi-texniki bazası ilə seçilir.

Bunlar teatr sənətinin bir tərəfidir. Digər tərəfdən istedadlı və peşəkar aktyor, rejissor heyəti formalaşmalıdır. Universitetlə tanışlığım zamanı bu sahədə necə böyük addımlar atıldığının şahidi oldum. Burada yetişən istedadlı gənclərdə kifayət qədər enerji və potensial gördüm. Bu potensial Naxçıvan teatrını daha parlaq gələcəyə aparacaq.

Dünənki görüşüm zamanı öz tələbələrimi də gördüm, onların xoş xatirələrində yer almaq məni kövrəltdi. Mənim üçün bu görüş çox əhəmiyyətli oldu. Bir arzum var, bu qədim teatra akademik statusu verilsin. Bu mənim böyük arzumdur, çünki bu teatr o statusa, doğrudan da, layiqdir.

*– Qocaman Naxçıvan teatrı və onun müasir imkanları, gənc aktyor və aktrisaların yetişdirilməsi üçün mövcud şərait barədə qənaətləriniz çox xoş oldu. Bəs Şəfiqə xanımı Naxçıvanın mədəni mühitində heyrətləndirən nə oldu?*

– Dünən Naxçıvandakı Film Fondunun direktoru ilə də həmsöhbət oldum. Mən çox təəccübləndim ki, burada bütün Azərbaycan filmləri var. Hətta bizdə olmayan filmlərə belə, rast gəldim, o filmləri qorumağın sadə texnikasını öyrəndim. Çox qəribədir ki, Naxçıvanda filmlərin qorunma təhlükəsizliyi buranın iqlimində nəmlik olmadığındandır. Bu, böyük bir nemətdir. Əgər bu olmazsa, həmin filmləri qorumaq üçün xüsusi texnika lazımdır.

*– Şəfiqə xanım, söhbət əsnasında Naxçıvan teatrı, mədəniyyəti ilə bağlı gözəl arzularınızı dilə gətirdiniz. Arzularla bağlı söhbətə davam etsək, daha nələrdən söz aça bilərsiniz?*

– İnsan yaşadıqca, arzuları da bitibtükənmir. Ona görə də yalnız onlar arasından bu səfərimə aid olan bir arzudan danışmaq istəyirəm. Arzum var ki, bu səfərimdə əsgərlərlə görüşüm. Bu, "Bizim Cəbiş müəllim"in müharibə şəraitindəki həyat mübarizəsi ilə bağlıdır. Naxçıvan tarixboyu müharibələrə sinə gərən mübarizlərin yurdudur. İndi də Naxçıvanın igidləri bu yurdu göz bəbəyi kimi qoruyur, muxtar respublika əmin-amanlıq şəraitində inkişaf edir. İstərdim ki, əsgərlər qarşısındakı borcumu da yerinə yetirim.

*– Doğma diyarımız haqqında dəyərli fikirlərinizə görə minnətdaram. O qədər xoş təsir bağışladınız, o qədər xoş təəssürat yaratdınız ki, sizinlə olan bu səmimi söhbəti heç bir zaman unutmayacağam.*

– Mən də çox şad oldum ki, bu gözəl diyarın səmimi və mehriban insanları arasındayam. Son olaraq sizi və kollektivinizi yüzillik yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm. "Şərq qapısı" qəzeti də mənim üçün çox doğmadır. Bu doğma qəzetin birəsrlik tarixi olduğunu eşidəndə çox qürurlandım. Bu il qəzetin 100 illik yubileyinin qeyd edilməsi də tarixi hadisədir.

*– Xoş sözlərinizə, təbriklərinizə və ən əsası dəyərli zamanınızda bizimlə müsahibədə də yer verdiyiniz üçün minnətdarıq. Sizə gələcək həyatınızda və fəaliyyətinizdə uğurlar arzulayırıq.*

**✍ Gülcamal TAHİROVA**

---

## Naxçıvandan Şuşaya salam

### Qələbə ətirli misralar, könüldən gələn səslər...

Vətən müharibəsindəki Tarixi Qələbəmiz, əbədi və əzəli Azərbaycan torpaqları olan Qarabağımıza qalib dönüşümüz milli poeziyamızda, eləcə də Naxçıvan ədəbi mühiti nümayəndələrinin yaradıcılığında müzəffər ruhlu, rəşadət və əzmkarlıq dolu, xarıbülbül ətirli yeni əsərlərin yaranmasına, yeni nəşrlərin ərsəyə gəlməsinə rəvac verib. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yazar, jurnalist Təranə Arifqızının "Qarabağda 44 gün" adlı kitabını vərəqlədikcə toplunun hər səhifəsində qələbə ətri, zəfər müjdəsi duyulur. Müəllifin özünəxas söz inciləri ilə bəzənən bu kiçikhəcmli nəşr ilk baxışdan arxasınca mərd oğulları qələbəyə doğru inamla aparan Müzəffər Ali Baş Komandan, "Vətən yaxşıdı" mahnısının ifası ilə silahdaşlarını döyüşə, irəliyə ruhlandıran şəhid Xudayar Yusifzadə və Qarabağımızın qədimliyinin təsvirləri əks edilən maraqlı üz qabığı ilə diqqəti çəkir. "Qarabağı ürəyində daşıyan" müəllif poetik dillə haqqın qılıncının kəsərini göstərir, torpaq həsrətindən danışdıqca "Qələbə xəbərini gətir" söyləyərək irəli səsləyir müzəffər Ordumuzu. Misraların sehrində torpaq ətirli məktub yazılır haqq-ədalət savaşına çıxan əsgər qardaşlarımıza, məğrur oğulların al-qanları ilə azadlığa çıxan ata-baba yurdlarımız zəfər nəğməli sözlərlə bəzənir, ana ilə şəhid oğulun fəxarət dolu söhbətinə qulaq şahidi olursan, üçrəngli bayrağımızla, bahar rəngləri ilə bəzənən Qələbə dolu ötən payız bir daha qayıdır gözlərim önünə. Zəfər müjdəsi ilə silkələnir, oyandırılır otuz illik həsrətə dalan şəhər, şirin-şəkər sözlərlə əzizlənir azadlığına qovuşan torpaqlarımız, ölümsüzlük qazanan şəhidlərə ehtiram göstərilir, gözaydınlığı verilir. Qarabağa danışılır düşmənin başını əzən "dəmir yumruğ"un kəsərindən, 44 sətirlə vəsf edilir ata vəsiyyətinə əməl edən, sözünə sadiq qalan oğulun – Müzəffər Ali Baş Komandanın siyasi iradəsi, əzmi...

Bir-birindən maraqlı şeir kitabları ilə oxucuların rəğbətini qazanan Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Qızıl qələm" mükafatı laureatı Ramiz Babayev isə vətənpərvərlik duyğuları hopmuş şeirlərindən ibarət "Salam, Şuşa" kitabı ilə Qələbəmizi təbrik edib.

Kitaba Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Rövşən Hüseynov "Şairin Qələbə raportu, yaxud Zəfər dastanının bir boyu" adlı ön söz yazıb.

Şair öncə xalqımızın tarixinə poetik ekskurs edir, keçilmiş yolda yaşanmışları bir daha xatırladır, sabaha ümidini əminliklə bildirir:

*Mən türkəm, qoy dünya eşitsin bunu*
*Orxon-Yeniseydən gəlir sorağım!*
*Bütün yer üzündə asılacaqdır*
*Mənim ay-ulduzlu qızıl bayrağım!*

Kitabboyu bir fikir qırmızı xətt kimi keçir: biz böyük olmuşuq, humanist olmuşuq, həmişə həqiqətin tərəfində durmuşuq. Ancaq xalqımızın taleyinə yazılmış ağrı-acıları yaşamağı da bacarmışıq. İnanmışıq ki, bu ağrı-acılar müvəqqəti çətinliklərdir. Son yüzilliklərdə ermənilərin əsassız torpaq iddiaları, musiqimizi, kulinariyamızı özününküləşdirməyi həyat amalına çevirmələri özünün, necə deyərlər, "kulminasiya" zirvəsinə çatmışdı.

Ötən il sentyabr ayının 27-də başlayan müharibənin ermənilər üzərində Böyük Qələbə ilə başa çatması həqiqətin təntənəsinə çevrildi. Bir ziyalı, vətəndaş kimi bu hadisələri poeziyanın mirasına çevirməyə çalışan Ramiz Babayevin bütün şeirlərində tarixdən gələn səsləri eşidirik; o səslər bizi öz keçmişimizə aparır:

*Yerindəmi o dağ, çəmən? Yenə dağa gəlirmi çən?*
*Çiçəklərdən şirə çəkən arım qalırmı görəsən?*
*Bulaqlara gedən cığır, at çapdığım köhnə cıdır*
*Üz-gözümdən həsrət yağır, ora yağırmı görəsən?*

Səhifələr vərəqləndikcə nisgil sevinclə əvəz olunur. Çünki 44 günlük azadlıq mücadiləsinin ilk günlərindən xalqımızın ağ atlı oğlanları yüzillərboyu ermənilərin başımıza gətirdiklərinin əvəzini birə-beş alaraq yeni tariximizi yazırlar.

Bu kitabla şairin Naxçıvandan Azərbaycan Mədəniyyətinin Paytaxtı Şuşaya salam göndərməsinə biz də qoşuluruq. Şuşa isə 30 ilə yaxın idi gözləyirdi ki, desinlər: Salam, Şuşa! Biz sənə qayıtdıq.

**✍ Muxtar MƏMMƏDOV**

---

## Ailə, qadın və uşaq hüquqlarının qorunması cəmiyyətin inkişafına xidmət edir

***Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması may ayında da diqqətdə saxlanılmış, bununla bağlı olaraq bir sıra seminar, təlim, monitorinq keçirilmişdir.***

Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı səfirliyinin maliyyələşdirdiyi "İcma Quruculuğu Təşəbbüsləri Proqramı" çərçivəsində "Naxçıvan Muxtar Respublikasında Qadınların İqtisadi Səlahiyyətlərinin Artırılması" adlı layihənin icrasına başlanılmışdır. Layihə çərçivəsində maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır" təlimi keçirilmiş, təlimlər zamanı sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrdən olan qadınlar da daxil olmaqla, muxtar respublika üzrə 27 qadının iştirakı təmin edilmiş, 20 nəfərə sərmayə kapitalının verilməsi nəzərdə tutulmuşdur.

Ötən ay özünüməşğulluğunu təmin etmiş sosial qayğıya xüsusi ehtiyacı olan şəxslərin və qadınların əl işlərinin satışına köməklik göstərilməsi məqsədilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində təşkil edilən "Göycə məhsullarının satışı yarmarkası"nda və muxtar respublikada fəaliyyət göstərən əl işləri mağazalarında, ümumilikdə, 41 qadının 709.50 manat dəyərində 139 əl işi satılaraq dəyəri iş sahiblərinə təqdim olunmuşdur.

"Qadınların Dayanıqlı İnkişaf üçün Səlahiyyətləndirilməsi" layihəsində sərmayə kapitalı verilmiş qadınlardan 4-nün təsərrüfat sahəsində sərmayə kapitalından düzgün istifadə etmələri ilə bağlı monitorinq keçirilmişdir.

Monitorinq zamanı layihə iştirakçılarının sərmayə kapitalını bağlanmış müqavilələrə uyğun istifadə etmələrinə nəzarət olunması və ayrılmış sərmayə kapitalından düzgün istifadə etmələri yoxlanılmışdır.

Hesabat ayında Şahbuz rayonunda yaşayan sağlamlıq imkanları məhdud və aztəminatlı ailənin üzvü olan qadınlar üçün toxuculuq peşəsinin öyrənilməsi ilə bağlı keçirilmiş təlimdə rayonda yaşayan aztəminatlı ailə üzvü olan 4, 16 sağlamlıq imkanları məhdud qadın və Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin 5 dərnək rəhbəri iştirak etmişlər.

May ayında Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair yaradılmış elektron məlumat bankına 494 uşaq haqqında fərdi məlumatlar daxil edilmiş, tədrisə cəlb edilmiş 120 sağlamlıq imkanları məhdud uşaqla bağlı 19 müəssisədə monitorinq keçirilmişdir.

Sədərək rayonunda fəaliyyət göstərən məktəbəqədər, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələrdə sanitar-gigiyenik vəziyyətlə bağlı bu sahəyə məsul olan şəxslərin iştirakı ilə maarifləndirici seminar keçirilmiş, müvafiq sahə ilə əlaqədar hazırlanmış 50 broşür seminar iştirakçılarına paylanılmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət etmək məqsədilə 4 uşaq müəssisəsində və valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 2 uşağın evində monitorinq keçirilmişdir. Ötən ay valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş 1 uşağın qeydiyyatı aparılmışdır.

Ötən ay 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə hemofiliyalı və talassemiyalı uşaqlara dəstək olmaq üçün komitə əməkdaşlarının iştirakı ilə qanvermə aksiyası keçirilmiş və 16 litr qan tədarük edilərək Qan bankına təhvil verilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Hər bir naxçıvanlı bu yurdun övladı olmağı ilə fəxr edə bilər



*Bir aydır ki, hər bir yurdsevər naxçıvanlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza on beşinci səfərinin sevincini yaşayır. Ölkə başçısının qədim diyara növbəti səfərində bir neçə obyektin açılışında iştirakı və Naxçıvanda yüksək təəssüratlar yaşaması:* ***“Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinmişəm... Bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”****, – burada görülən işlərə ən yüksək dəyər kimi hamımızı qürurlandırdı.*

İstər-istəməz ötən günlərə qayıdıram. Naxçıvan şəhərində dünyaya göz açmışam, burada təhsil almışam, hazırda ölkəmizin ali məktəbləri sırasında ön yerdə duran Naxçıvan Dövlət Universitetində çalışıram. Bu inkişafı görən bir naxçıvanlı kimi mən də qürur hissi keçirirəm. Ona görə ki, illər öncə ucqar əyalət şəhərindən seçilməyən Naxçıvan bu gün dünyanın belə coğrafi şəraitdə yerləşən şəhərləri ilə müqayisə edilə bilməz.

Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim diyar son illərdə keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün çoxlarına asan görünə bilər. Ancaq Azərbaycanın uçuruma sürüklənmək ərəfəsində olduğu bir vaxtda həmin məsələlərin həll olunması cəsarət tələb edirdi. Üstəgəl blokada şəraitinin yaratdığı çətinliklər. Bu çətinliklərin nə vaxtsa aradan qaldırılacağına heç kim ümid bəsləmirdi. Lakin zaman sübut etdi ki, Vətən sevgisi, yurd məhəbbəti, insanın layiq olduğu səviyyədə yaşamaq ən yüksək vəzifəyə çevriləndə istədiyinə nail ola bilərsən. Bugünkü Naxçıvan buna sübutdur.

İllərdir ki, qədim diyarımız Naxçıvanda hər bir naxçıvanlı müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi ilə yaşayır, üzərinə düşən və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə səy göstərir. Bilir ki, gördüyü hər bir iş bu qədim diyarın daha da çiçəklənməsi üçündür. Bu prinsip naxçıvanlıların həyat idealına çevrilib. Fərqi yoxdur, istər yüksək postda duranlar, istərsə də sıravi insanlar üçün dövlətçilik, dövlətçiliyə sədaqət ən ali vəzifədir. Hamı bu vəzifəni yerinə yetirməyi özünün vətəndaşlıq borcu sayır. Bu borc uşaq bağçasından tutmuş ali məktəblərədək təlqin olunur. Vətəndaşlıq borcunun layiqincə yerinə yetirilməsi isə dövlətçiliyin, müstəqilliyin sabahına ən böyük zəmanətdir.

Bu günün reallığıdır ki, bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz müasirlik donuna bürünüb. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdırlar. Müasirləşən kəndlər bugünkü Naxçıvanın nail olduğu sosial-iqtisadi inkişafın göstəriciləridir və bu göstəricilərin həcmi, coğrafiyası getdikcə genişlənir. Bütün bunlar həm də insanlara qayğının ifadəsidir.

Bir neçə il əvvəl Naxçıvanın qonağı olanlar bu gün təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq naxçıvanlılar üçün adi hala çevrilib. Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatı olan bir turistin sözlərini xatırlayıram: “Bu yeniliklər gündəlik olaraq sizin gözlərinizin qarşısında baş verdiyi üçün sizə adi görünür”. Qədim diyarın inkişafına belə yüksək qiymət verilməsi hər birimizi sevindirməklə məsuliyyət hissimizi də artırır.

Gündəlik olaraq yeniliklərə imza atmaq, qurmaq, yaratmaq naxçıvanlıların həyat idealına çevrilib. Ona görə də gələcəyimizin daha parlaq və işıqlı olacağına əsas var. Bu, yurd sevgisindən qaynaqlanaraq keçilən və seçilən yoldur, düzgün yoldur, əbədi yoldur. Bunun təməlində dayanan amillər yurda, bu yurdun böyük oğlu, Azərbaycanımızı dünyada tanıtmış ümummilli lider Heydər Əliyevə sonsuz sədaqət və ehtiramdır.

**Nailə QARDAŞBƏYOVA**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

*Bu gün ekoloji problemlərin həlli sahəsində dövlət orqanları ilə yanaşı, bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür. Belə ki, yerli ekoloji proqramların qəbul və icra edilməsi bələdiyyələrin səlahiyyət dairəsindədir. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda qeyd olunur ki, yerli ekoloji proqramların qəbulunda məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə elə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin abadlaşdırılması, məişət tullantılarının yığılması, nəql edilməsi və emalı, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması ilə bağlı tədbirlər daxil edilməlidir.*

# Bələdiyyələr yerli əhəmiyyətli ekoloji məsələlərin həllinə öz töhfələrini verməlidirlər

Yerli ekoloji proqramların qəbul və icra olunması məqsədilə bələdiyyələr “Bələdiyyələrin daimi və başqa komissiyaları haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli ekoloji məsələlər üzrə daimi komissiya yaradırlar. Həmin daimi komissiya yerli ekoloji proqramların layihələrini hazırlayır. Qeyd edək ki, qanunvericiliyə görə bələdiyyə üzvü eyni vaxtda bir neçə daimi və ya başqa komissiyanın üzvü ola bilər.

“Ekoloji təhlükəsizlik haqqında” Qanuna görə Azərbaycan Respublikasının bütün ərazisi ekoloji təhlükənin dərəcəsi üzrə zonalara bölünür. Zonalarda ekoloji təhlükəsizliyin təmin edilməsinə dair tələblər müəyyən olunub. Hər bir bələdiyyə öz ərazisində ekoloji təhlükəsizliyin təmin edilməsi üçün, ilk növbədə, ərazisinin ekoloji təhlükəlilik baxımından hansı zonaya bölünməsini dəqiq bilməlidir. Bunu bildikdən sonra həmin zonada hansı təsərrüfat və digər fəaliyyət növləri ilə məşğulluğun mümkünlüyü, yaxud hansı fəaliyyət növü ilə məşğul olmamaq dəqiq müəyyənləşdirilməlidir.

Ekoloji təhlükəsizliyin təmin edilməsi üçün ilk vacib şərt ekoloji proqramların hazırlanmasıdır. Ətraf mühitin mühafizəsi ekoloji təhlükəsizliyin vacib şərtidir. Yerli ekoloji məsələlərlə bağlı ayrı-ayrı qanunvericilik aktlarında yerli özünüidarə orqanlarının hüquq və vəzifələri müəyyən edilib. Bu vəzifələr sırasında ekoloji maarifləndirmə də xüsusi yer tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsində hər kəsin sağlam ətraf mühitdə yaşaması hüququnun olması hər kəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququnu təsbit edir. Aydındır ki, ekoloji təhlükəsizliyə nail olmağın vacib amillərindən biri də əhalinin ekoloji maarifləndirilməsidir. Belə ki, hər bir bələdiyyə öz ərazisində yaşayan əhalinin ekoloji maarifləndirilməsi qayğısına qalmalı, əhalini ətraf mühitə, ekoloji və insanla təbiət arasında qarşılıqlı əlaqələrə dair məlumatlar ilə tanış etməyə, xüsusən də gənc nəsil arasında ekoloji mədəniyyətin formalaşmasına çalışmalıdır.

Ölkəmizdə insan fəaliyyəti nəticəsində əşya və maddə şəklində əmələ gələn istehsalat və məişət tullantılarından ətraf mühitin qorunması, onların təhlükəli təsirinin azaldılması, təbiətdə ekoloji tarazlığın təmin olunması, təkrar xammal kimi tullantıların istifadəsi ilə bağlı məsələlər “İstehsalat və məişət tullantıları haqqında” Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası böyük təbii ehtiyatlara malik bir diyardır. Bu baxımdan mövcud təbii ehtiyatların gələcəyimiz naminə qorunması yerli özünüidarə orqanlarının da qüvvə və səylərini artırmasını tələb edir. Son illərdə dövlət tərəfindən bələdiyyələrə böyük dövlət qayğısı göstərilir, onlar müvafiq texnikalarla, təmizlik qutuları ilə təmin olunurlar. Bələdiyyələr də onlar üçün yaradılmış şəraitdən istifadə edərək ətraf mühitin mühafizəsinə öz töhfələrini verməlidirlər.

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası***
***Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş mərkəzinin rəisi***

# Mühasiblər üçün təlim keçilib



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzində hüquq-mühafizə orqanlarında çalışan maliyyə və mühasibatlıq işçilərinin iştirakı ilə “Büdcə təşkilatlarında uçot və hesabat” adlı təlim keçilib. Təlimə Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Hərbi Prokurorluq, Fövqəladə Hallar Nazirliyi, İnzibati Məhkəmə, Ağır Cinayətlər Məhkəməsi və Ali Məhkəmədə çalışan 12 mütəxəssis cəlb olunub.

Təlimi giriş sözü ilə açan Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova bildirib ki, təlimin keçirilməsində məqsəd hüquq-mühafizə orqanlarında maliyyə-mühasibat işinin Beynəlxalq Mühasibat Uçotu Standartlarına əsasən aparılması, maliyyə hesabatlarının hazırlanması ilə bağlı biliklərin artırılması və daha da təkmilləşdirilməsindən ibarətdir.

Dörd moduldan ibarət olan təlimin ilk günü Maliyyə Tədris Mərkəzinin əməkdaşı Pərviz Babayev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin əməkdaşı Elvin Əlimərdanov çıxış ediblər. Növbəti gün “Büdcə təşkilatlarında maliyyə hesabatlarının tərtib edilməsinin praktik izahı” adlı təlim zamanı maliyyə hesabatlarının beynəlxalq standartlara uyğun şəkildə tərtib edilməsi üzərində praktik iş aparılıb.

Gündəliyə uyğun olaraq son gün “Büdcə təşkilatlarında aktivlərlə bağlı əməliyyatların uçotu və maliyyə hesabatlarında əks etdirilməsi” modulu üzrə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşı Arzuman İmanov tərəfindən iştirakçılara aktivlərin təsnifatının düzgün aparılması ilə bağlı məlumat verilib.

Sonda dinləyicilərə sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Maliyyə Nazirliyinin mətbuat xidməti***

# Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Səhiyyə nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Kəngərli rayonunun Xok kəndində yaşayan aztəminatlı Cəfərovlar ailəsinə baş çəkilib. Ailə ilə görüş zamanı adıçəkilən təşkilatların əməkdaşları bildiriblər ki, dövlətimiz tərəfindən aztəminatlı ailələrə daim diqqət və qayğı göstərilir, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan ailələrin sosial təminatlarının gücləndirilməsi və yoxsulluğun azaldılması istiqamətində ardıcıl olaraq tədbirlər həyata keçirilir.

Görüş zamanı uşaqlar həkim müayinəsindən keçirilib, ailənin problemləri ilə maraqlanılıb, ehtiyaclarına uyğun kömək göstərilib.

Sonda ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası***
***Ailə, Qadın və Uşaq Problemləri***
***üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

# Fövqəladə hallara hazırlıq günün tələbidir

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin aparatı və struktur qurumları tərəfindən may ayında da muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulmuş vəzifələrin icrası təmin edilmişdir.

May ayında Şahbuz Rayon Mərkəzi Xəstəxanasında “Fövqəladə hallarda xəstəxananın fəaliyyətinin təşkili” mövzusunda kompleks mülki müdafiə təliminin keçirilməsi təmin olunmuşdur.

Ötən ay sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə 4 təhlükə potensiallı obyekt yoxlanılmış, 23 qurğu sınaqdan keçirilərək texniki təhlükəsizlik sertifikatı ilə təmin edilmiş, 8 müəssisədə 204 işçinin iştirakı ilə maarifləndirmə-profilaktika işi aparılmış, 6 müəssisənin 36 texnoloji nəqliyyat vasitəsi cari il üçün texniki baxışdan keçirilmişdir. Həmçinin 4 tibb müəssisəsinə radioloji-gigiyenik pasport verilmiş, 10 tibb müəssisəsində radiasiya təhlükəsizliyinin təmin edilməsi məqsədilə baxış-yoxlama aparılmışdır.

Hesabat dövründə muxtar respublikada mülki müdafiə işinin təşkili diqqətdə saxlanılaraq 33 müəssisədə 986 nəfərin iştirakı ilə maarifləndirici tədbir və qrup məşğələləri keçirilmişdir. Eyni zamanda 5 obyektdə mülki müdafiə işinin təşkili ilə bağlı müəyyən olunmuş tələblərin yerinə yetirilməsi yoxlanılaraq metodik köməklik göstərilmiş, Culfa rayonunda inzibati ərazi dairələri üzrə nümayəndələrin və bələdiyyə sədrlərinin mülki müdafiəyə və fövqəladə hallara hazırlanması təmin edilmişdir.

Muxtar respublikada yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi üçün 160 obyektdə diqqətli, 193 obyektdə nəzəri, 16 obyektdə məqsədli yoxlama, 23 obyektdə 987 nəfərin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Ay ərzində 3 min 145 yaşayış evinə baxış olmuş, yanğın cəhətdən təhlükəli olan 84 elektrik və 67 şlanqla çəkilmiş qaz xəttinin istismarı dayandırılmış, qazla işləyən 4 şofbentipli su qızdırıcısının və 108 tezqatlanan tüstü borusunun istismarı dayandırılmış, 8 min 459 nəfər yanğına qarşı təlimatlandırılmış, 116 obyektlə icbari sığorta müqaviləsi bağlanmışdır.

Ot-taxıl yığımı dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə Daxili İşlər və Kənd Təsərrüfatı nazirlikləri ilə birgə tədbirlər planı hazırlanmış, biçinə cəlb olunan kombaynlarda və digər kənd təsərrüfatı texnikalarında, ümumilikdə, 99 yanğın-texniki müayinə aparılmışdır. Taxıl yığımı kampaniyasına hazırlıq mərhələsində 10 un dəyirmanında və 2 yem anbarında yanğın-texniki müayinələr aparılmış, 1196 nəfər yanğına qarşı təlimatlandırılmışdır.

Naxçıvan şəhərində 4, Şərur şəhərində 1 ictimai yaşayış binasında tüstü bacalarının açılmasına hazırlıq işləri aparılmış, 78 tüstü bacasının təmizlənməsi təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## İtmişdir

Şərur rayonu, Yengicə kənd sakini Həsənov İlqar Əli oğluna məxsus JN-937 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonu, Qarxun kənd sakini Kazımov Həsən Kazım oğlunun adına verilmiş JN-329A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 472